# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Milli mədəniyyət sərvətlərinin mühafizəsinin, kənara çıxarılmasının və onlardan istifadə Qaydalarının təsdiq edilməsi haqqında

# Qərar № 204

***Bakı şəhəri, 15 oktyabr 1998-ci il***

«Mədəniyyət haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları», «Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları», «Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A.RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 1998-ci il, № 10, maddə 625) («VneshExpertService» LLC).***

***10 may 2000-ci il tarixli, 84 nömrəli; 3 iyun 2005-ci il tarixli, 100 nömrəli; 21 dekabr 2005-ci il tarixli, 236 nömrəli; 2 may 2006-cı il tarixli, 119 nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 152 nömrəli; 25 aprel 2008-ci il tarixli, 100 nömrəli qərarlara əsasən əlavələr və dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1998-ci il 15 oktyabr tarixli,*
*204 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir.***

# Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları

1. Bu Qaydalar «Mədəniyyət haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində olan milli mədəniyyət sərvətlərinin mühafizə qaydasını müəyyən edir.

2. Milli mədəniyyət sərvətləri Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alındıqdan sonra onların mühafizəsi təmin olunur.

3. Dövlət milli mədəniyyət sərvətlərinin mühafizəsini təmin edir.

4. Milli mədəniyyət sərvətlərinin qorunmasına nəzarəti Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəniyyət sərvətlərinin mühafizə siyahısına uyğun olaraq Azərbaycan Respublikasının *Mədəniyyət və Turizm Nazirliyi, «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi* təmin edirlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti tarix, arxeologiya, şəhərsalma, arxitektura və monumental sənət abidələrinin, təbii landşaft obyektlərinin mühafizəsini təmin etmək məqsədilə mühafizə zonalarını müəyyən edir və mühafizə zonaları haqqında normativ-hüquqi aktlar qəbul edir.

Bu halda mühafizə zonasında qalan torpaq sahəsinin mülkiyyətçisi və ya istifadəçisi mühafizə rejiminə riayət etməlidir.

6. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər mülki dövriyyədən çıxarılır və Nazirlər Kabinetinin icazəsi olmadan onları ləğv etmək, başqa yerə köçürmək, surətini çıxarmaq və ya bərpa etmək olmaz.

7. Mədəniyyət sərvətləri mühafizəsinin (qabaqlayıcı, konservasiya, bərpa və xüsusi) dərəcəsinə uyğun olaraq mühafizə olunur.

8. Təbii landşaft, arxeologiya və arxitektura obyektlərinin, monumental sənət əsərlərinin tarixi əhəmiyyəti və qiyməti müəyyən olunanadək həmin obyektlərə mühafizənin qabaqlayıcı dərəcəsi şamil edilir. *Öz səlahiyyətləri daxilində Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi və «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə* razılaşdırılmadan bu mədəniyyət sərvətlərinin sökülməsi, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsi qadağandır.

9. Mühafizənin konservasiya dərəcəsi, istifadədən tamamilə çıxarılmalı və ya Azərbaycan Respublikasının *Mədəniyyət və Turizm* Nazirliyinin, *«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin* nəzarəti altında məhdud dairədə istifadə edilməli olan mədəniyyət sərvətlərinə aid edilir. Həmin mühafizə dərəcəsi əlyazmalara, nadir arxiv sənədlərinə, nadir kitablara, qoruqlara və s. mədəniyyət sərvətlərinə şamil olunur.

10. Mühafizənin bərpa dərəcəsi, ilkin mədəniyyət təyinatına qaytarılması üçün bərpa işlərinə ehtiyacı olan mədəniyyət sərvətlərinə şamil edilir. Mühafizənin bərpa dərəcəsi tətbiq olunana qədər obyekt barədə konservasiya dərəcəsi müəyyən edilə bilər.

11. Xüsusi mühafizə dərəcəsi Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan milli mədəniyyət əmlakı obyektlərinə şamil edilir.

12. Mədəniyyət sahəsində inhisarın qarşısının alınmasını Azərbaycan Respublikasının Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi həyata keçirir.

13. Milli mədəniyyət sərvətlərinin mülkiyyətçisinin və ya istifadəçisinin, dini təyinatlı mədəniyyət sərvətlərinin isə müvafiq dini qurumun razılığı olmadan onların surətləri çıxarıla, habelə onlardan turizm, ekskursiya və reklam məqsədilə istifadə edilə bilməz.

14. Subyektin milli mədəniyyət sərvətlərini saxlamağa imkanı olmadıqda, mülkiyyətçinin arzusu ilə Azərbaycan Respublikasının *Mədəniyyət və Turizm* Nazirliyi onun saxlamağa imkanı olan subyektə satılmasını təşkil edir və ya saxlanma xərclərini dövlət hesabına götürür.

15. Mülkiyyətində, idarəçiliyində, yaxud istifadəsində milli mədəniyyət sərvətləri olan müəssisə, idarə və təşkilatlar, eləcə də vətəndaşlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin sərvətlərin mühafizəsini təmin etməyə borcludurlar.

16. Mədəniyyət sərvətlərinin və təbii landşaft obyektlərinin mühafizə rejimi təsdiq edilmiş müvafiq nizamnaməyə əsasən tənzimlənir.

17. Tarixi, elmi, bədii və s. dəyərlərə malik yeni aşkar olunan obyektlər müvafiq qaydada siyahıya alınma dövrünədək milli mədəniyyət sərvəti kimi mühafizə olunurlar.

18. Azərbaycan Respublikasının *Mədəniyyət və Turizm* Nazirliyi *və öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi* mədəniyyət sərvətlərinə, onun mühafizəsinə dair qısa xarakteristikasını əks etdirən lövhənin vurulmasını təmin edirlər.

19. *Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi* Daxili İşlər Nazirliyi ilə birlikdə *və öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi* milli mədəniyyət sərvətlərinin mühafizəsinə təhlükə törədən, yaxud onlara xələl gətirə bilən nəqliyyat vasitələrinin, maşın və mexanizmlərin abidələrə yaxın yoldan, mühafizə zonasından istifadəsini məhdudlaşdıra və ya qadağan edə *bilərlər* .

20. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş daşınmaz mədəniyyət sərvətlərinin sökülməsi, görkəminin dəyişdirilməsi, köçürülməsi qadağandır. Müstəsna hallarda qanunvericilikdə nəzərdə tutulmuş qaydada (Nazirlər Kabinetinin icazəsi olduqda) abidələr köçürülə ~~və ya görkəmi dəyişdirilə~~ bilər.

*Fövqəladə hallarla əlaqədar olaraq daşınar abidələr onların məhv edilməsi, oğurlanması və ya korlanması təhlükəsi qarşısında Azərbaycan Respublikası Prezidentinin qərarı əsasında müvəqqəti olaraq təhlükəsiz rayonlara köçürülə bilərlər.*

21. Mədəni mübadilə məqsədilə müvəqqəti olaraq Respublikaya gətirilən və xarici ölkələrin mülkiyyətində olan mədəniyyət sərvətləri qarşılıqlı razılaşmaya əsasən dövlət tərəfindən qorunur.

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1998-ci il 15 oktyabr tarixli,*
*204 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir.***

# Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları

1. Bu Qaydalar «Mədəniyyət haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq, Azərbaycan Respublikası ərazisində milli mədəniyyət sərvətlərindən istifadə qaydalarını müəyyən edir.

2. Dövlət maddi və mənəvi mədəniyyət sərvətlərindən hər kəsin bərabər hüquqlarla istifadə etməsinə təminat verir.

3. Milli mədəniyyət sərvətlərindən onların tarixi və bədii təyinatı ilə bir araya sığmayan tərzdə istifadə edilməsi qadağandır.

4. Milli mədəniyyət sərvətlərindən istifadə müvafiq yönümlü mədəniyyət təsisatının üstünlük hüququ vardır.

5. Dini qurumlara məxsus olan və mədəniyyət sərvəti sayılan əşyalardan onların mədəniyyət təyinatı nəzərə alınmaqla istifadə edilir.

6. Milli mədəniyyət sərvətlərindən elmi, təhsil, mədəniyyət və s. məqsədlərlə istifadə muzey, kitabxana, sərgi, qoruq şəbəkələri və s. vasitəsilə ekskursiya, turizm və digər təbliğat formalarında həyata keçirilir.

7. Daşınmaz milli mədəniyyət sərvətlərindən elmi, mədəni və tərbiyəvi məqsədlərdən başqa Azərbaycan Respublikası *Mədəniyyət və Turizm* Nazirliyinin, *«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin* ~~və ya Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin~~ razılığına əsasən onlardan tarixi-bədii dəyərlərinə xələl gətirməmək şərti ilə təsərrüfat və digər məqsədlərlə də istifadə oluna bilər.

8. Dövlət mülkiyyətində olan milli mədəniyyət sərvətindən istifadə rejimini Azərbaycan Respublikasının *Mədəniyyət və Turizm* Nazirliyi, *«İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi* ~~yaxud Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsi~~ müəyyən edir.

9. Xüsusi mülkiyyətin müxtəlif formalarından olan milli mədəniyyət sərvətləri onun sahibinin icazəsi ilə elmi, sərgi-ekspozisiya və s. mədəni tədbirlərdə istifadə edilə bilər. Bu halda istifadəçi həmin sərvətlərin qorunub saxlanılması üçün məsuliyyət daşıyır.

10. Dövlətə məxsus milli mədəniyyət sərvətlərindən istifadə nəticəsində əldə edilən vəsaitlər milli mədəniyyət sərvətlərinin qorunmasına və saxlanılmasına sərf edilir.

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*1998-ci il 15 oktyabr tarixli,*
*204 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir.***

# Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları

1. Bu Qaydalar «Mədəniyyət haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq hüquqi və fiziki şəxslər tərəfindən (bundan sonra ərizəçilər) milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılmasının qaydasını müəyyən edir.

2. Milli mədəniyyət sərvətləri yalnız Azərbaycan Respublikası *Mədəniyyət və Turizm* Nazirliyinin *və ya ərazi üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin* tabeliyində fəaliyyət göstərən müvafiq ekspert komissiyasının verdiyi mühafizə dərəcəsinə uyğun olaraq ixrac olunur. İxracın mümkünlüyü verilən mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.

3. Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması üçün ərizəçi Azərbaycan Respublikası *Mədəniyyət və Turizm* Nazirliyinin *və ya ərazi üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin* tabeliyində fəaliyyət göstərən müvafiq ekspert komissiyasına müəyyən olunmuş qaydada ərizə ilə müraciət edir. Komissiya 1 ay ərzində mədəniyyət sərvətinin mühafizə siyahısına daxil edildiyi barədə şəhadətnamə və ya onun sərbəst istifadəsinə icazə verir.

4. Mühafizə dərəcəsi verilməmiş mədəniyyət sərvətləri (onun sərbəst istifadəsinə dair icazə sənədi olduqda) mülkiyyətçi və ya istifadəçi tərəfindən sərbəst ixrac edilə bilər.

5. Müvəqqəti sərgi, qastrol səfərləri və bərpa prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla milli mədəniyyət əmlakı olan sərvətlərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması qadağandır. Bu sərvətlərin Azərbaycan Respublikasının hüdudlarından kənarda olması müddəti «Mədəniyyət haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, bir qayda olaraq, il ərzində altı aydan çox olmamalıdır.

6. Respublika ərazisinə qaytarılan milli mədəniyyət sərvətlərinə görə gömrük vergi və rüsumları ödənilmir.

*© VneshExpertService LLC*